BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№4* *Humanitar elmlər seriyası* *2005*

# ƏDƏBİYYATŞÜNASLIQ

## AZƏRBAYCAN MAARİFÇİLİYİ VƏ TÜRKÇÜLÜK

**M.SARAÇLI (HƏSƏNOVA)**

Türkçülük anlamını ən əvvəl millətsevərlik, türk millətini yüksəltmək, türk millətinə bağlılıq kimi dəyərləndirmək lazımdır. Millətlər öz mənliyini ancaq böyük fəlakətlər zamanında dərk edirlər. Ötən əsrin son rübündə turklərin milli varlığı üçün çiddi təhlükə yaradan farsçılıq və rusçuluq kimi axınlara qarşı özünü müdafiə hərəkatı kimi türkçülük – türk millətinin vahid milli ideologiyası yaranır. Bu ideologiya bütün türk dünyasını, xüsusən oğuz türklərinin yaşadıqları əraziləri bürüyür.

Türkçülük – türk millətçiliyi, türk millətinin ideologiyası deməkdir və millət, dil, əxlaq, estetika baxımından ortaq olan fərdlərin bütünü olduğu üçün dünyanın harasında yaşamasından asılı olmayaraq bütün dünya türklərini özündə birləşdirir. Türkçülük ilk növbədə bütün türklərin bir millət olması ideyası ilə ortaya atılır.

Ə.Hüseynzadə, A.Səhhət, A.Şaiq, H.Cavid kimi Azərbaycan romantikləri mədəni türkçülüyün reallaşması yolunda əllərindən gələni əsirgəməmişlər. C.Cabbarlının da bu işdə xidməti az olmamışdır.

Azərbaycanda M.Ə.Rəsulzadə, Türkiyədə Mustafa Kamal Atatürk türkçülüyün dövlət məfkurəsini reallaşdıran liderlər idi. Atatürk - «hətta bütün dünyanın türklərini əhatə etməli olan bir dövlətin yaradılması ideyası boş bir xülyadır. Biz hər cür istilaçılıq cəhdlərindən uzağıq» - deyirdi. M.Ə.Rəsulzadə də Mustafa Kamal Atatürkün uzaqgörənliyini təqdir edir, real və sağlam ideya istiqaməti kimi ancaq bir-biri ilə əlaqələr saxlayan bir sıra türk dövlətlərinin əsaslandığı türkçülüyü qəbul edirdi.

Rusiyanın türklərə qarşı şovinist siyasəti I Pyotrun, daha çox isə II Yekaterinanın zamanında gücləndi.

II Yekaterinanın Qarabağda İbrahimxəlil xanı taxtdan salıb burada «Albaniya dövləti» adlı yeni xristian dövləti – Ermənistan çarlığı yaratmaq cəhdi, «Ararat çarlığı» qurmaq planı layihəsinin bəyənilərək çap edilməsi onun türklərə münasibətini aydın ifadə edirdi.

İkiyə bölünmüş Azərbaycan bu siyasətin kulminasiya nöqtəsi idi.

Azərbaycan maarifçiləri bu siyasətə öz münasibətlərini birmənalı şəkildə bildirirdilər.

İsmayıl bəy Qutqaşınlının «Dövləti Aliyyeyi Rusun Azərbay-

can vilayətlərini zəbt etməsi», M.F.Axundovun «Zaqafqaziya ölkəsinin Rusiyaya ilhaq edilməsi», H.Zərdabinin «Rus dövlətinin bizim vilayəti alması» kimi fikirləri dediklərimizə sübutdur.

A.Bakıxanov da bu prosesləri xalqımızın milli mənafeyi baxımından dəyərləndirirdi.

Azərbaycanda türkçülüyün təşəkkülündə maarifçilik hərəkatı mühüm rol oynamışdır. A.Bakıxanov, M.F.Axundov, H.Zərdabi ilə təmsil olunan Azərbaycan maarifçiliyinin bu prosesdə rolu o qədər önəmli idi ki, Mirzə Bala Məmmədzadə: «Mirzə Fətəli və H.Zərdabi 50 il sonra dünyaya gəlsəydilər, istiqlal fikri də 50 il sonra meydana gələcəkdi» yazmışdı.

XIX yüzillik Azərbaycan türklərinin həyatında lokal milli intibah dövrü kimi səciyyələndirilir. Bu dövrü ona görə intibah dövrü adlandırmaq olar ki, millətlərin oyanış, renessans çağında o millətin içindən yetişən ziyalı rəhbər şəxslər tərəfindən əvvəlcə mənsub olduğu millətin kimliyi və keçmiş zamanlardakı vəziyyəti araşdırılır, sonra bu geriliyin səbəbi ilə yabançı millətin əsarəti altına düşmüş olan xalqa onun kimliyi tanıdılır. Beləliklə, müstəmləkə olan xalq öz kimliyini öyrənir. Keçmişdə atalarının əsarət altında yaşamadıqlarını və sözün əsl mənasında müstəqil, azad yaşadıqlarını, müstəqil dövlət qurduqlarını anlayır. Nəticədə millətin şüuru oyanır, azadlıq mübarizəsinə başlayır.

XIX yüzilliyin sonu XX yüzilliyin əvvəllərində təşəkkül tapan milli türkçülük ideologiyası 1918-ci ildə Azərbaycanda milli dövlətin qurulması ilə nəticələnmişdir. Bu bütöv bir nəslin gərgin çalışmalarının bəhrəsi kimi meydana çıxmışdı.

XIX yüzillikdə A.Bakıxanovla, M.F.Axundovla, H.Zərdabi ilə təmsil olunan, mədəni həyatın bütün sahələrini bürüyən intibahın rolu bu prosesdə əvəzsiz idi.

XIX yüzilliyin birinci yarısında tarix, dilçilik elmi sahəsində ilk əsərlərin yaranması xalqın vətənçilik, millətçilik şüurunun oyanmasına, Azərbaycan türklərinin özünü tanımasına xidmət edirdi.

İlk dəfə Mirzə Kazım bəy «Dərbəndnamə» əsərində Azərbaycan və Qafqazın tarixinə nəzər salmışdı. Bütün Azərbaycanın ilk tarixinin yazılması isə, XIX əsrin ensiklopedik şəxsiyyətlərindən olan A.Bakıxanovun adı ilə bağlıdır. Şair, nasir, tərcüməçi, coğrafiyaşünas alim kimi Azərbaycan mədəniyyəti tarixində mühüm yer tutan bu şəxsiyyətin ən böyük xidməti isə onun vahid, bütöv Azərbaycan tarixini yaratmaq cəhdi idi. Bakı xanlarının nəslindən olan Bakıxanov Çar Qafqaz Canişini idarəsində işləyirdi. Çar hökuməti tərəfindən dəfələrlə döyüşlərdə şücaətinə görə orden-medallara layiq görülmüş, polkovnik rütbəsinə qədər yüksəlmiş, Türkmənçay müqaviləsinin imzalanması prosesində iştirak etmişdi. Bütün bunlar məsələnin ancaq zahiri tərəfi idi.

Çiynində Çar Rusiyasının epoletlərini daşısa da bu adamın ürəyi vətəninə, millətinə sevgi ilə döyünürdü. Elmi-bədii yaradıcılığı da bu sevginin təsdiqi, ifadəsi kimi meydana gəlmişdi.

Azərbaycanın Rusiya və İran arasında bölünməsinin canlı şa-

hidi kimi, bəlkə də bu faciəli hadisənin təsiri altında bütöv Azərbaycan tarixini yaratmağı vacib hesab etmişdi. Bu gün əsarətə düşmüş bir xalqın qəhrəman keçmişə malik olduğunu, dəfələrlə imperatorluqlar, müstəqil dövlətlər qurduğunu, Mete, Atilla, Çingiz xan kimi dünyanı lərzəyə gətirən fatehlər yetirdiyini ona xatırlatmaqla xalqda milli azadlıq əzmi oyatmağa çalışmışdır.

1846–48-ci illərdə «Kafkaz» qəzetində hissə-hissə çap etdirdiyi «Gülüstani-İrəm» əsəri Azərbaycanda yaşayan əhaliyə onun keçmişini öyrətmək, bu xalqın keçmişdə əsir olmadığını, hakim olduğunu göstərmək məqsədilə yazılmışdı. Əsərdə bu ərazidə yaşamış müxtəlif tayfaların mənşəyi, dilləri, dinləri haqqında zəngin elmi məlumat verilmiş, Azərbaycan tarixinin ən qədim dövrlərindən başlayaraq Gülüstan müqaviləsinə qədərki dövrünün elmi mənzərəsi yaradılmışdır.

Türk tədqiqatçıları türkçülüyün tarixindən bəhs edərkən dünyada yaşayan müxtəlif türk şivələrinin vahid türk dilinin qolları olması ideyasının Əhməd Vefiq paşa, Süleyman paşa kimi türkçülər tərəfindən irəli sürüldüyünü iddia edirlər. Bu ideya «Gülüstani-İrəm» əsərində onlardan xeyli əvvəl Bakıxanov tərəfindən irəli sürülmüşdü. Əsərin çap olunması tədqiqatçıların bu həqiqətdən xəbərsiz qalmalarına səbəb olmuşdur. Çünki çar hökuməti əsəri yazdığı üçün müəllifə brilyant üzük göndərsə də nəşrinə icazə verməmişdi.

A.Bakıxanov əsrlərdən bəri Azərbaycan ərazisində yaşamaqda olan əsas əhalini sadəcə olaraq türk adlandırır, bütün əhalinin türkcə danışdıqlarını qeyd edir və türklərin yalnız Azərbaycanda deyil, bir çox ölkələrdə yayıldığını, Azərbaycan türkcəsinin qrammatikasının yazılmadığını göstərirdi.

A.A.Bakıxanovdan sonra Azərbaycanda türkçülüyün təşəkkülündə ən böyük rol oynamış sima M.F.Axundovdur. Türkçülük hərəkatının təşəkkülündən bəhs edərkən M.F.Axundovun «Rusiyada yetişən iki böyük türkçüdən birincisi», «Böyük Azərbaycan türkçüsü», «Milli ədiblərimizin atası» adlandırılması, «Milliyyət hissi birinci olaraq bu ədibdə oyanmışdır» və s. kimi qənaətlər M.F.Axundov və türkçülük probleminə aydınlıq gətirməyi xeyli aktuallaşdırır.

Azərbaycanda milli şüurun, milli ideologiyanın formalaşması XIX yüzilliyin sonu, XX yüzilliyin əvvəllərinə aid edildiyindən onun əsərlərində milli şüur, millət anlayışı hələ yox idi. Tez-tez işlətdiyi «İslam xalqı», «İslam milləti», «Müsəlmanlar» kimi ifadələr bütün müsəlman xalqlarını əhatə edirdi. M.F.Axundovu bütün Şərq xalqlarının xüsusilə, vətən saydığı «İran millətinin» gələcəyi düşündürürdü. İran milləti dedikdə o, İranda yaşayan bütün xalqları nəzərdə tuturdu, özünü də bu millətə mənsub sayırdı. Özünün yazdığı tərcümeyi-halında əslən fars tayfalarına mənsub olmasını fəxrlə qeyd edirdi: «Mən özüm zahirən türk olsam da, əslim farslar nəslindəndir». Bəlkə də bu mülahizələr onun «Kəmalüddövlə məktubları»nı, özünün əlifba layihəsini çap etdirmək niyyəti ilə

bağlı ola bilərdi. Digər tərəfdən Axundovda bugünkü mənada anlaşılan millət duyğusunun olmamasının da ifadəsi ola bilərdi. Çünki ədibə 1845-ci ildə Tiflisdə verilmiş şəhadətnamədə aydın göstərilmişdi ki, «onun əsli türk tayfasındandır».

Bu faktlar belə bir qənaətə gəlməyə əsas verir ki, Axundovun türkçülüyü şüurlu türkçülük deyildi. Lakin başda M.F.Axundov olmaqla Azərbaycan maarifçilik hərəkatı millətin və milli şüurun təşəkkülündə əvəzsiz rol oynamışdır.

XIX yüzillik maarifçiliyinin ən görkəmli siması, şübhəsiz ki, Azərbaycan mədəniyyətində Şərq-Qərb sintezinin əsasını qoyan Mirzə Fətəli Axundov idi. Ona görə də böyük mütəfəkkirin yaradıcılığı nəzərə alınmadan türkçülük hərəkatının təşəkkülündən, onu formalaşdıran ictimai-siyasi, kültürəl mühitdən bəhs etmək imkansızdır.

Azərbaycan Rusiya tərkibinə qatılandan sonra mədəniyyətin inkişafında keyfiyyətcə yeni dövrün əsası qoyulur. Bu zaman Rusiya mədəniyyəti özünün qızıl dövrünü yaşayırdı. Rus mədəniyyətinin özü isə Avropa mədəniyyətinin məhsulu idi. Buna görə də M. F.Axundovun «rus kültürünün məhsulu və təsdiqçisi» adlandırılması araşdırıcıların etirazına səbəb olmuşdur. M.F.Axundovun türk dünyasına ən böyük xidməti ana dilində ilk dəfə avropasayağı əsərlər yazmasından ibarət idi.

M.F.Axundov təkcə qərbsayağı mədəniyyətin əsasını qoymadı, həm də Azərbaycan mədəniyyətinin yeni istiqamətdə inkişafına təkan verdi. M.F.Axundovla ədəbiyyatda başlanan qərbləşmə meyli getdikcə milli mədəniyyətin başqa sferalarına da nüfuz etdi. M.F.Axundov özü bu həqiqəti belə ifadə edirdi: «Müsəlmanlar arasında birinci olaraq yalnız avropalılara məlum olan əsərlərlə tanış olduğum və həmvətənlərimi onlarla tanış etdiyim üçün fəxr etməyə cəsarət edə bilərəm». Avropa mədəniyyətinin mənimsənilməsi türkçülüyün təşəkkülündə də mühüm rol oynamışdır.

Tiflisdə Qafqaz canişinliyində tərcüməçi işləməsi Axundovu ruslaşdırma siyasətinin tələblərinə xidmət etməyə məcbur edirdi. Bu siyasət Azərbaycan mədəniyyətinin İran təsirindən uzaqlaşdırılmasına, dolayı yolla Avropa mədəniyyətinin Azərbaycana ötürülməsinə, Şərq-Qərb sintezinə xidmət edirdi. Bu baxımdan mədəni həyatda Rusiyanın mövqeyi mütərəqqi görünürdü.

Aydın olur ki, Çar Rusiyası Quzey Azərbaycanda fars dilinin nüfuzunu zəiflətmək, ölkəni İran, Türkiyə təsirindən uzaqlaşdırmaq üçün ədəbiyyatın «tatarca» – Azərbaycan türkcəsində yaradılmasını məqsədəuyğun saymışdır. M.F.Axundov bu tələbin ilk və ən uğurlu icraçılarından biri kimi çıxış edirdi.

Belə mürəkkəb bir durumda M.F.Axundov Azərbaycan türkcəsində dramlar yazır, realist milli nəsrin, ədəbi tənqidin əsasını qoyurdu. İlk dəfə olaraq bu komediyalarda Azərbaycan türkləri öz milli koloriti ilə səhnədə görünürdü. Odur ki, F. Köçərli bu əsərləri «Məişətimizin aynası» adlandırır.

Axundov Azərbaycanda maarifin yayılmasında islam dinini

başlıca maneə sayır, milli tərəqqi konsepsiyasında üç təməldən birini – avropalaşmağı özündə ehtiva edirdi. O, Azərbaycan türklərinin geriliyinin daha bir səbəbini ərəb əlifbasının çətinliyində görürdü.

Həmin dövrdə ərəb əlifbasının dəyişdirilməsi haqqında M.F.Axundovun fikirləri rus hökumətinin siyasətinə də uyğun gəlirdi. Çeçenlər və avarlar üçün xüsusi əlifba tərtib edən rus hökumətinin bu addımını M.F.Axundov «rus hökumətinin öz təbəələrini qaranlıqdan işığa çıxarması» kimi dəyərləndirirdi.

Əslində isə Rusiya imperiyası ədəbiyyatın yerli ləhcələrdə yaranması və ərəb əlifbasının dəyişdirilməsi yolu ilə öz əsarətində yaşayan türkləri bir-birindən ayırmağa, parçalamağa, İran və Türkiyə təsirindən qoparmağa çalışırdı.

M.F.Axundov öz əlifba layihələrini də bir neçə dəfə islah etmişdi. İlk dövrdə o, ərəb əlifbasının sadəcə islahı ilə kifayətlənirdi. Lakin bu əlifbanı dəyişdirməyin mümkünsüzlüyünü anladıqdan sonra Axundov bu fikirdən tamam imtina edərək latın əlifbasına keçilməsi uğrunda mübarizə aparırdı.

Axundov yaradıcılığında irəli sürdüyü humanist ideyalarla da Azərbaycan türklərində milli mənlik şüurunun oyanmasına, milli mentalitetin təşəkkülünə xidmət etmişdir.

Onun dövründə inkişaf etmiş milli mətbuat yox idi. Bu dövrün «Molla Nəsrəddin»i «Kəmalüddövlə məktubları» olur. Onun dövründə sosial ədaləti və milli mənafeyi təmsil edən ayrıca təşkilat yox idi. Bu dövrün siyasi təşkilatı onun özü, epostolyar fəlsəfi irsi olur. O, özü bizim ilk universtitetimiz olub. Sonralar bizim elmi, fəlsəfi, estetik fikirlərimiz «Təmsilat»dan və «Kəmalüddövlə»dən doğur.

M.F.Axundovun dövrü elə bir dövr idi ki, «Həyatın bir tərəfi sökülür, o biri tərəfi yeni biçimdə tikilirdi». M.F.Axundov haqqında C.Cabbarlı «o, bir mühəndis kimi bu sökülən və tikilən binanın başı yanında durmuş, amansız qələmi ilə bura sökülməlidir, bura isə belə tikilməlidir» deyir. Onun bu fikri bizcə Axundova verilən əsl elmi qiymət idi.

Öz fəaliyyəti ilə Azərbaycanda milli ideologiyanın təşəkkülündə əvəzsiz rol oynayan Axundova M.Ə.Rəsulzadənin verdiyi qiymət də maraqlıdır: «Rusiya imperiyasının müsəlman xalqlarının türk özünüdərki çoxdan – ilk dramaturqumuz M. F. Axundzadənin 1850-ci illərdə sadə xalq dilində ölməz komediyalarını yazdığı vaxtdan başlanmışdır».

M.F.Axundovdan sonra Azərbaycanda türkçülüyün təşəkkülündə olduqca mühüm rol oynayan sima Həsən bəy Zərdabi idi. M.Ə.Rəsulzadə M.F.Axundovun xidmətlərindən bəhs edərkən Azərbaycan türklərinin «milliyyət ikən millət olmaya başlaması» prosesinin öncülü olduğunu göstərirdi: «Qonuşduğu lisanda ilk qəzetəyə malik cəmiyyət bir milliyyət ikən millət olmaya başlamış deməkdi».

«Əkinçi» qəzetində 1905-ci ilə qədər olan dövrü (1875-1905)

milli hərəkat tariximizdən bəhs edən tədqiqatçılar, «milli intibahımızın sübh çağı» «Əkinçi»dən «Molla Nəsrəddin»ə qədər olan dövr», «Həsən bəy Zərdabi–İsmayıl Qaspiralı» dövrü və s. kimi səciyyələndirirlər. Bu mülahizələr şərti səciyyə daşısa da, prinsipcə böyük bir reallığı əks etdirir. Baxmayaraq ki, H. Zərdabi tərəfindən ilk xeyriyyə cəmiyyətinin, milli teatrın əsasının qoyulması bu ildən əvvələ aiddir.

Aşağıda qeyd edəcəyimiz köklü keyfiyyət dəyişiklikləri 1875-ci ildən 1905-ci ilə qədər olan dövrün Həsən bəy Zərdabi dövrü adlandırılmasına əsas verir:

1. M.F.Axundovla ədəbiyyatda başlanan avropalaşma oriyentasiyası tədricən mədəniyyətin başqa sferalarına da nüfuz edir. Y.Qarayevin təbirincə desək, onun qoyduğu təlim kütləviləşir, cərəyan vüsəti alır. H. Zərdabi bu hərəkatın önündə gedərək ilk xeyriyyə cəmiyyətinin, milli teatrın, ana dilli mətbuatın əsasını qoyur. Təhsilin milliləşdirilməsi istiqamətində mühüm addımlar atılır, H. Zərdabi özündən sonrakı Azərbaycan mədəniyyətinin əsas istiqamətlərini müəyyənləşdirir.

2. Azərbaycan mədəniyyətini əhatə edən qərbləşmə meyli Rusiya əsarətində yaşayan digər türk xalqlarının mədəni inkişafına da təsir göstərir. Fəxrlə demək olar ki, bütün sahələrdə «ilk dəfə» sözünün işlədilməsi Azərbaycan türklərinə şamil edilir. (ilk milli teatr, ilk milli mətbuat və s.)

3. İsmayıl Qaspiralı və «Tərcüman» fenomeni «Əkinçi» qəzetinin ardıcılı olaraq onun təsiri ilə formalaşır.

Mərhələnin sonunda ümmətçilikdən millətçiliyə keçid baş verir. Cəmiyyətin bütün sahələrini bürüyən maarifçilik hərəkatı milli şüurun formalaşmasını şərtləndirir.

H.Zərdabi dövrü Ə.Hüseynzadə tərəfindən milli ideologiyanın yaranması ilə başa çatır.

4. «Əkinçi» qəzetinin İsmayıl Qaspiralıya, İsmayıl Qaspiralının Azərbaycan mühitinə (Ə.Hüseynzadə, Ə.Topçubaşov və Ə.Ağaoğluna) ikitərəfli təsiri baş verir. İlk dəfə olaraq İ. Qaspiralı 80-cı illərdə bütün türklərin bir millət olması, ümumtürk ədəbi dili yaratmaq – «dildə, fikirdə, işdə birlik tezisini irəli sürür». Bu amil H.Zərdabi mərhələsini həm də H.Zərdabi-İsmayıl Qaspiralı mərhələsi adlandırmağa imkan verir.

Zərdabi mərhələsinin baş ideoloqu şübhəsiz ki, müasirlərinin «Zaqafqaziya müsəlman ziyalılarının müəllimi və atası» adlandırdıqları Həsən bəy Zərdabi idi.

Zərdabi «Əkinçi»ni qoruyub saxlamaq üçün mümkün olan hər şeyi etsə də, çar hökuməti «pantürkist» istiqamətinə görə qəzeti bağladı.

1903-cü ildə «Şərqi-Rus»un nəşrinə qədər İsmayıl Qaspiralının «Tərcuman»ı Rusiya türklərinin yeganə ana dilli mətbu orqanı idi. İ.Qaspiralı yazırdı: «Birinci ovuc maarif buğdasını Həsən bəy ağamız səpdi». Bunun fidanları olaraq Tiflisdə «Ziyayi - Qafqaziyyə», «Kəşkül» zühur etmişlər... Lütfi-Xuda ilə bir buğda da

Krım yarımadasına düşdü кi, bundan «Tərcümanımız» zühura gəldi. 80-cı illərin əvvəllərindən başlayaraq İsmayıl Qaspiralının irəli sürdüyü türкçülüк ideyaları – «dildə, fiкirdə, işdə birliк» düsturu onu bütün türк dünyasında mədəni türкçülüк hərəкatının ideoloqu кimi tanıtdı. H.Zərdabinin islamlaşmaq, qərbləşməк çağırışlarına İ.Qaspiralı bir də türкləşməк çağırışını əlavə etdi. Belə bir şəxsiyyətin Həsən bəy Zərdabinin təsiri altında yetişməsi və bunu fəxrlə etiraf etməsi XIX yüzilliкdə Azərbaycanda baş verən intibahın nə qədər böyüк əhəmiyyət daşıdığını, H. Zərdabi fenomeninin gücünü göstərirdi.

H.Zərdabi mərhələsinin sonunda türкlərin vahid bir millət olması, türк birliyi çağırışları Azərbaycan ziyalılarının da dilindən eşidilməyə başlamışdı.

## ƏDƏBİYYAT


1. Qarayev Y. Azərbaycan ədəbiyyatı XIX və XX yüzillər. B. 2002. s.737.
2. Əliyeva A. Azərbaycan romantiкlərinin yaradıcılığında türкçülüк. B. 2002. s.332.
3. Resulzadə M. E. Kafкasiya türкleri. İstanbul, 1993.
4. Əliyarlı S. Azərbaycan milli hərəкatının ilкin dönəmləri, «Azərbaycan» jurnalı. 1991, № 11. s. 138 – 148.


## АЗЕРБАЙДЖАНСКОЕ ПРОСВЕТИТЕЛЬСТВО И ТЮРКИЗМ


М.САРАЧЛЫ (ГАСАНОВА)


### РЕЗЮМЕ


В статье оценивается в научном облике тюркские идеи творчества азербайджанских просветителей. Еще раз уточняется их неотрицаемая роль в национальном самопонимание азербайджанских народов.